**UOT 94(479.24)**

# MƏHƏMMƏD TAHİR VƏHİD VƏ ONUN "ABBASNAMƏ" ƏSƏRİ HAQQINDA

**S.A.ƏZİMOVA**
***Bakı Dövlət Universiteti***
***Solmazadilqızı@mail.ru***

*Məqalə Şah II Abbasın saray tarixçisi Məhəmməd Tahir Vəhidin "Abbasnamə" əsərinin təhlilinə həsr olunmuşdur. M.T.Vəhidin 1665-1666-cı illərdə qələmə aldığı bu əsərdə Azərbaycan Səfəvi hökmdarı Şah II Abbasın hakimiyyəti dövründə baş vermiş hadisələr öz əksini tapmışdır. Digər mənbələrdə rast gəlinməyən və çox zəngin məlumatlarla dolu olan bu kitab II Şah Abbasın dövrünün öyrənilməsi üçün ən qiymətli mənbə hesab olunur.*

**Açar sözlər:** Səfəvilər, Osmanlı imperiyası, Şah II Abbas

Azərbaycan Səfəvi imperiyasının qüdrətli dövlət başçısı I Şah Abbasın (1587-1629) vəfatından sonra I Şah Səfinin (1629-1642) dövründə imperiyada daxili çəkişmələr baş qaldırmış, ölkə bir neçə cəbhədən xarici hücum təhlükəsi qarşısında qalmışdı. Bu zaman dövlətə itaət etməyən ərəb şeyxlərinin qiyamları getdikcə artmış və onlar mərkəzin əmrlərinə, göstərişlərinə heç cür əməl etmirdilər. I Şah Səfinin hakimiyyətinin ilk illərində Kartli və Kaxet hakimi Təhmuraz xan Allahverdi xanın oğlu İmamqulu xanın qardaşı Davud xanla ittifaqa girib üsyan bayrağı qaldırmış və birlikdə özbaşınalıq edirdilər. Osmanlı padşahı Sultan Murad (1623-1640) ölkədəki bu dəhşətli vəziyyətdən xəbər tutaraq Səfəvi məmləkətinin bir qisim əyalətlərini ələ keçirməyə qərara almışdı. Bu məqsədlə o, Səfəvi dövlətinin sərhədinə qoşun göndərib, sərhəd şəhərlərini təhdid etməyə başlamışdı. Osmanlı dövlətinin qoşunu Sultan Muradın (1623-1640) özünün başçılığı altında Ərəb İraqına hücüm etməyi qərara almışdı. Onlar bu dəyərli və müqəddəs ölkəni Səfəvilərdən qoparıb almaq fikrində idilər. Osmanlı ordusu 1638-ci ildə Bağdadı ələ keçirdi və iki dövlət arasında 1639-cu ildə imzalanan sülh müqaviləsinə əsasən, Ərəb İraqı Osmanlı dövlətinin tərkibinə daxil oldu [1, 25, 26, 32-34] .

Belə bir tarixi durumda Şah Səfi 1642-ci ildə Kaşanda vəfat etdi. Qızılbaş əmirləri onun 10 yaşlı oğlu Sultan Məhəmmədi II Şah Abbas (1642-

1666) adı ilə taxta oturtdular. Beləliklə, Şah Abbas saninin (ikinci – Ə.S.) hakimiyyətə keçməsi və onun bilik və bacarığı nəticəsində Səfəvi məmləkətinin düşdüyü çətin vəziyyət tədricən aradan qaldırıldı [2, 12-15]. Halbuki, bu zaman bütün Qızılbaşlar bədbin idilər. Ona görə ki, ölkə, demək olar ki, hər tərəfdən təhlükə qarşısında olub: onun bir çox əyalətlərini qonşu dövlətlər ələ keçirmişdilər və bir çox əyalətlərinə də sahib olmaq fikrində idilər. Rusiya çarı müxtəlif bəhanələr ilə Xəzərin qərb və cənub sahillərini fəth etmək istəyirdi. Sultan Muradın qardaşı Sultan İbrahim (1640-1648) hələ də dövlətin bir çox qərb şəhərlərini ələ keçirmək fikrindən daşınmamışdı. O bu məqsədlə hər gün ərəb əmirlərindən birini Səfəvi dövlətinin daxili işlərinə qarışmağa vadar edirdi.

Böyük Moğol padşahları isə təkcə Qəndəhara deyil, indiki bütün Əfqanıstana sahib olmağa çalışırdılar. Özbək sultanları mövcud vəziyyətdən istifadə edib Xorasanı çapıb talayırdılar.

Gənc Səfəvi Şahı II Abbas sülalə və Qızılbaş əmirlərinə arxalanıb ilk növbədə rəiyyətin illərlə yığılıb qalmış vergi borclarını onlara bağışlayaraq bütün xalqın etimadını qazandı. O, xarici işğalların, daxildəki qiyamların, hakimiyyətə qarşı çıxanların qarşısını uğurla alıb, qiyamçıları müxtəlif cəzaya məhkum edərək dövləti həm içəridən, həm də dışarıdan möhkəmləndirə bildi.

II Şah Abbasın hakimiyyəti dövründə Səfəvi dövlətinin sərhədi şimali-qərbdən Qafqazın axırıncı nöqtəsinə, qərb tərəfdən İraqın sərhədinə, cənub tərəfdən Hindistan ərazisinə və şərqdən isə Ceyhan çayının sahilinə qədər uzanır və göstərilən sərhədlər daxilində ərazisi təxminən 2,8 mln. $km^2$-dən ibarət idi. Fransa səyyahı Səfəvi dövlətinin bu geniş ərazisinin aşağıdakı 18 əyalətə bölündüyünü göstərmişdi:

1) Ermənistan, (Çuxur-Səəd); 2) Diyarbəkir; 3) Kürdüstan; 4) İraqi-Ərəb; 5) İraqi-Əcəm; 6) Şirvan; 7) Azərbaycan; 8) Gilan və Mazandaran; 9) Astrabad; 10) Tatar-Özbək məmləkəti; 11) Xorasan; 12) Zabilistan; 13) Sistan; 14) Sind sahili; 15) Mokran; 16) Kerman; 17) Fars; 18) Xuzistan [3, 358-360].

Səfəvi dövləti ilə həmsərhəd olan bir çox qonşu dövlətlər də daxili siyasi məsələlərin həlli ilə bağlı bəzən İsfahan sarayına üz tuturdular. Qonşu dövlət başçıları istər daxili və istərsə də xarici məsələlərdə çətinliklə qarşılaşdıqda bu çətinlikləri aradan qaldırmaq üçün Səfəvi şahına müraciət edir, ondan məsləhət, hərbi yardım alırdılar. Buxara əmiri İmamqulu xan (1611-1642) Səfəvi sarayına gəlmiş və Şah Abbas ona qiymətli hədiyyələr bəxş etmişdi. Onun qardaşı və canişini Nadir Məhəmməd xan (1642-1645) özbək qiyamçıları və Hindistan ordusu ilə qarşılaşdıqda çətinliklərə düçar olmuş və o da II Şah Abbasa pənah gətirmişdi. II Şah Abbasın köməyi ilə o, yenidən Türküstanda taxt-taca sahib olmuşdu. O, özbəklərlə münasibəti gərginləşdikdə yenə Səfəvi sarayına üz tutmuş, ancaq Səbzvarda vəfat etmişdi. Səfəvi Şahı Nadir Məhəmməd xanın cənazəsini dəfn üçün ehtiramla Mədinə şəhərinə yola salmışdı.

Böyük Moğol padşahları, daha doğrusu Qurəngzeyblə (1658-1707) digər canişinlər arasında daim çəkişmələr baş verirdi ki, bu zaman onların hamısı kömək üçün ayrı-ayrılıqda qüdrətli Səfəvi hökmdarlarına müraciət edirdilər.

Şah Səfi onları açıq qəlblə qəbul etmiş, onlar bundan istifadə edərək məqsədlərini həyata keçirmişdilər. Lakin qürdrətli Şah Abbas sani Hindistan ordusunun onun qoşunundan çox olmasına baxmayaraq bilik və bacarığı, sərkərdəlik qabiliyyəti sayəsində Qəndəharı fəth edərək onları geri oturda bilmişdi [2, 14].

Səfəvi hökmdarı Şah Abbas sanidən çoxlu tarixi memarlıq abidələri də yadigar qalmışdır. İsfahanda dünya şöhrətli, uca və möhkəm Ala Qapı imarəti, Səadətabad adlı bağ və imarət, İsfahandakı Çehelsütun imarəti, Zayəndərud bəndi, şəbəkəli Tovuzxana imarəti, Xəlvətxana adlı imarətin hamısı ondan yadigar qalan tarixi abidələrdir. O, eyni zamanda Zayəndərud çayı üzərində körpü tikdirmiş, İsfahanın tarixi cümə məscidini təmir etdirmişdi. İraqda da bir neçə imamzadə kompleksini yüksək səviyyədə təmir etdirmişdi ki, onlar da Səfəvilər dövrünün yadigarları olan gözəl sənət əsərləridir [2, 14, 15].

II Şah Abbas qərara almışdı ki, insanların əmin-amanlığını təmin etmək, məzlumları zülm və zorakılıqdan qorumaq, haqqa-ədalətə riayət olunması, insanların şikayətlərinə baxılması üçün hər həftənin üç günü insanlar sərbəst şəkildə onun hüzuruna gəlsinlər və öz şikayətlərini, istəklərini şəxsən onun özünə çatdırsınlar.

Kiçik yaşında hakimiyyətə gəlmiş Sultan Məhəmməd Mirzənin (II Şah Abbas) təvəllüdü, gəncliyi, hakimiyyəti illərində Səfəvi dövlətinin sosial-iqtisadi və siyasi tarixi haqqında dövrün məşhur tarixçisi Məhəmməd Tahir Vəhidin "Abbasnamə" adlı əsəri istisna olmaqla, digər mənbələrdə ətraflı məlumata təsadüf edilmir.

“Abbasnamə”nin dünyanın bir çox kitab fondlarında-Birton (Ethe), Mədrəs, Peterburq, Bankipur, London (İkon kollecinin kitabxanası), Tehran, Oksford (Bondlian kitabxanası), Dəkkə, Aliqarh və s. əlyazma nüsxələri saxlanılır.

Səfəvi tarixinə aid olub, 1653-1654-cü ildən gec olmayaraq yazılmağa başlanmış “Riyad ət-təvarix” adlı əsər üç babdan ibarət olub, üçüncü bab II Şah Abbasın dövrünün 1663-1664-cü ilə qədərki tarixinə həsr olunmuşdur. Ancaq əsərin Peterburqda Mikluxo-Maklay tərəfindən siyahıya alınmış XVII əsrin sonu-XVIII əsrin əvvəlinə aid yeganə əlyazma nüsxəsinin (Mikluxo-Maklay III, № 349) mətninin girişində əsərin adı buraxılmışdır [4, 889]. Lakin Sprenger sonuncu babın Məhəmməd Tahir Vəhidə aid olan bu əlyazma nüsxəsini “Riyad əd-təvarix” başlığı ilə qeyd etmişdir [5, 251]. Əsərin XVIII əsrdə üzü köçürülmüş naqis Bankipur VI, 523 şifrəli nüsxəsi II Şah Abbasın dövrünün tarixi hadisələrindən ibarət olub, onun bir yerində əsərin adı “Riyazül Əkbər” və digər yerində isə "Riyad ət-təvarix-i Tahir-i Vəhid" kimi göstərilmişdir. “Riyad ət-təvarix”in Peterburq əlyazma nüsxəsi ön söz və üç babdan ibarətdir. Birinci babda Səfəvilərin hakimiyyətə gəlməsinə qədərki tarixinin icmalı verilmişdir. İkinci bab I Şah İsmayılın şahlıq taxtına oturmasından, II Şah Abbasın hakimiyyətə gəlməsinə qədər Səfəvi tarixini əhatə edir və altı fəslə bölünür. Birinci fəsildə I İsmayıl, ikinci fəsildə I Təhmasib, üçüncü fəsildə II İsmayıl, dördüncü fəsildə Sultan Məhəmməd Xudabəndə, beşinci

fəsildə I Abbas, altıncı fəsildə I Səfi və dövrün adlı-sanlı adamlarından bəhs edilir. Üçüncü bab isə 1663-1664-cü ilə qədər II Şah Abbasın dövrünə həsr edilmişdir [4, 889, 890].

Əsərin digər əlyazma nüsxələri “Riyad əd-təvarix”dəki üçünçü babdan ibarətdir və çox ehtimal ki, Məhəmməd Tahir tərəfindən yazılmış “Abbasnamə” sonradan “Riyad ət-təvarix”ə üçüncü bab kimi əlavə edilmişdir. Məhəmməd Tahir Vəhidin II Şah Abbasa həsr etdiyi əsərin XVII-XIX əsrlərdə tərtib edilmiş əlyazma nüsxələri daha çox “Abbasnamə”, “Tarix-i Tahir-i Vəhidi”, “Tarix-i Şah-i Abbas-i sani” adları ilə siyahıya alınmış, onların əksəriyyəti naqis nüsxələr olmuşdur və II Şah Abbasın hakimiyyətinin 1656-cı ilinə qədərki dövrünü əhatə edir. Bu əlyazma nüsxələrinin yalnız iki redaksiyasında II Şah Abbasın hakimiyyətinin 1663-1664-cü illərinə qədərki dövr əhatə edilir [4, 890].

“Abbasnamə” ilk dəfə Davudi kitabxanasının müdiri Seyid Məhəmməd Davudinin səyi ilə İbrahim Dehqani tərəfindən təshih və tərtib edilərək nəfis şəkildə Əraк şəhristanda çap edilmişdir [6]. Əsər Şah Abbas saninin 25 illik hakimiyyətinin 22 ili ərzində baş vermiş olay və hadisələri əhatə edir. Əsəri “Xolde-bərin” adlı məşhur tarixi salnamənin müəllifi Məhəmməd Yusif Qəzvininin qardaşı, zamanın şair və tarixçisi Mirzə Məhəmməd Tahir Vəhid qələmə almışdır. Əsər Şah Abbas saninin hakimiyyətinin ilk ilindən, yəni h. 1052-ci ildə (1642) onun hakimiyyətə gəlməsindən başlayaraq h. 1074-cü (1663-64) ilə qədərki dövrün tarixi hadisələrindən bəhs edir. “Abbasnamə” də şahın hakimiyyətinin sonrakı üç-dörd ili haqqında məlumat verilmir. Tarixçinin hansı səbəbə görə Şah Abbas saninin hakimiyyətinin son dörd ilinin tarixi hadisələrini qələmə almaması təəssüf doğurur və bu məsələ tədqiqatçılar üçün bu gün də qeyri-müəyyən qalır. “Abbasnamə” tədqiqatçıların bir çoxunun fikrincə, bu əsər Səfəvilərin son dövrünə, xüsusilə də Şah Abbas saninin hakimiyyəti illərinə aid mötəbər, mükəmməl və tarixi hadisələrin doğru əks olunduğu qaynaqdır.

Müəllif kitabda bəhs etdiyi hadisələrin çoxunun iştirakçısı olmuş, bəzi hallarda isə müəyyən işlərə nəzarət və bəzən də şahidlik etmişdir. Elə buna görə də o tarixi hadisələri əsərində müfəssəl və ətraflı yazmışdır.

“Abbasnamə” də Şah Abbas saninin misilsiz və əzəmətli bir hökmdar kimi təqdim edilir və həm də qətiyyətli siyasətçi, ədalətli, tərəqqinin tərəfdarı, islahatçı kimi zamanın hökmdarlarının fəxri olduğu göstərilir.

Kitabda, qeyd edilən məsələlərdən əlavə ordu və dövlətdə mənsəb sahiblərinin vəzifəyə təyin edilmələri, vəzifə səlahiyyətlərinin müxtəlif səbəblərlə başa çatması, bir çox əmir və vəzifəli şəxslərin müxtəsər bioqrafiyası verilmişdir.

Əsərdə Səfəvi dövlətinin qonşu dövlətlərlə siyasi münasibətlərinə də geniş yer verilmişdir. Eyni zamanda Türküstan və Hindistanın daxili vəziyyəti, Gürcüstan əmirləri arasındakı ixtilaflar haqqında da geniş məlumatlara təsadüf edilir.

“Abbasnamə” Şah Abbasın (1642-1666) 25 illik hakimiyyətinin 22 ilinin tarixindən ibarətdir və müəllif əsərini təxminən 1665-1666-cı illərdə bitirmişdir. Ancaq hansı səbəbə görə şahın hakimiyyətinin sonuncu üç-dörd ilini yazmaması, bu gün də müəyyən edilməmişdir. Bu kitab həmin dövrdə yazılmış ən qiymətli kitab olub, Şah Abbas sani zamanının ən dəyərli mənbəsidir. Müəllif yazdığı hadisələri nəinki müşahidə etmiş, bəlkə də bu hadisələrin çoxunun iştirakçısı olmuşdur. Elə buna görə də o, tarixi hadisələri əsaslandırılmış və müfəssəl şəkildə qələmə almışdır. “Abbasnamə”də Şah Abbası sani sarayının əzəməti və saray məmurlarının siyasətçiliyi, şahın və onların şan-şöhrəti öz əksini tapmışdır. Bu əsərdə Səfəvi dövlətinin siyasi tarixi ilə yanaşı, qonşu xalqların, o cümlədən Türküstanın vəziyyəti, Hindistanda baş vermiş hadisələr, Gürcüstan əmirləri arasındakı ixtifaflar geniş səpkidə verilmişdir. Bu səbəbdən əsər təkcə Səfəvi tarixi üçün deyil, Türküstan və Hindistan tarixinin də öyrənilməsinə aid qiymətli mənbədir.

“Abbasnamə”də tarixi hadisələr təhrif edilmədən, olduğu kimi verilir. Əsərin ətraflı şəkildə təhlilindən məlum olur ki, o müqayisə edilməyən qaynaqdır.

İbrahim Dehqani tərəfindən tərtib olunub, nəşr edilmiş “Abbasnamə” h. 1052-1073-cü illərdə baş vermiş tarixi hadisələri əhatə edir və əsərin tam nüsxəsidir. Mənbənin naqis nüsxələri də vardır ki, İbrahim Dehqani həmin nüsxələrdən də faydalanmışdır. Naqis nüsxələrin bir çoxu İbrahim Dehqanin yazdığına görə, II Şah Abbasın hakimiyətinin ilk 15 ilindəki, yəni h. 1052-1066-cı illərin (1642-1656) tarixi hadisələri əks etdirir. İbrahim Dehqaninin nəşrə hazırladığı nüsxə özünün yazdığı kimi, tam və mükəmməl olub, gözəl xətlə yazılmış, həm də şahın göstərişləri də qeyd edilmişdir. Belə ki, müəllif kitabı tamamladıqdan sonra onun qaralama nüsxəsini şaha təqdim etmişdir. Şah kitabı nəzərdən keçirdikdən sonra müəllif onun göstərişlərini nəzərə alaraq kitabın əlyazma nüsxəsinin üzünü köçürüb, onun əsas variantını hazırlamışdır. Artıq bu zaman Şah dünyasını dəyişmişdi. Ancaq müəllif kitabın ilk səhifəsinə şahın əvvəl qeyd edilən göstərişləri əsasında onun Novvab Sahibğran (xoşbəxt, bəxtiyar), Xəllədəllah (Allah onun hakimiyyətini əbədiləşdirsin) kimi epitetlərini (titul) və Xoldaşyan (mərhum) kəlməsini də qeyd etməklə, artıq onun vəfat etdiyini bildirir. Mənbənin qeyd edilən nüsxəsi göstərildiyi kimi, həm gözəl xətlə, həm də səhfsiz yazılmışdır. Qeyd edilənlərdən görünür ki, kitabın üzünü köçürən onun qaralama nüsxəsindəki səhvlərdən xəbərdar olmuş və elə bu səbəbdən də əsas nüsxəni yazarkən düzəlişlər etmiş və səhvə yol verməmişdir. Bu düzəlişlərlə kitabın üzünü müəllif özü köçürmüş və onun tam və mükəmməl nüsxəsini hazırlamışdır.

Ağay-i İbrahim Dehqani “Abbasnamə”nin mükəmməl nüsxəsini h. 1329-cu ildə Ərakda nəşr etdirmişdir. Onun özünün yazdığı kimi, nəşrə hazırladığı əlyazma üzərində düzəlişlər etmiş, qeyd və şərhlər də yazmışdır. Iran alimlərindən Səttar Əvdi İbrahim Dehqanin çapı əsasında əsəri ixtisarla

“Sərqozaşt-i Şah Abbas devvom” adı ilə h. 1384-cü ildə Tehranda çap etdirmişdir [7].

“Abbasnamə” hələ XIX əsrdə dünya tarixşünaslığında ciddi marağa səbəb olmuş və əsərin qısa çıxarışları B.Dorn tərəfindən dərc olunmuşdur. Əsərin B.Dorn tərəfindən siyahıya alınmış 303 (Рукопись ИВ АН, D-89) əlyazma nüsxəsinin 218b-220a, 229b, 236a səhifələri A.A. Romaskeviç tərəfindən qısa çıxarışla rus dilinə tərcümə edilmiş və dərc olunmuşdur [9].

Mənbənin tədqiqatçılarından Rusiya-sovet alimlərindən N.D.Mikluxo-Maklayın Leninqradda elmi sessiyada əsərin Rusiyadakı əlyazma nüsxələrinə aid çıxışının tezisi 1966-cı ildə dərc olunmuşdur [10]. Məşhur tarixçi İ.P.Petruşevski “Tarix-i Şah-i Abbas-i san-i”in B.Dorn əlyazma nüsxəsindən (Рук. ЛГПБ, каталог Дорна, №303 (2)) geniş şəkildə istifadə etmiş, əsərin müəllifinin qısa tərcümeyi-halı, əlyazmanın işlək adlarını əsərində göstərmişdir. İ.P.Petruşevski Məhəmməd Tahir Vəhidin əsəri haqqında prof. A.A.Romaskeviçin “üslubca gözəl, ancaq məzmunca zəif” olması haqqındakı rəyini çox sərt hesab edir və onunla razılaşmır [11, 37-38]. Tarixçinin bu fikri çox düzgün olub, onun da qeyd etdiyi kimi, “Abbasnamə”də müharibələr tarixi üstünlük təşkil etsə də, əsərdə dövlət quruluşu, maliyyə müəssisələri, Zaqafqaziya haqqında unikal materiallar da az deyildir.

Azərbaycan tarixçilərindən M.X.Heydərov, S.M.Onullahi, T.M.Musəvi, Ə.Ə.Rəhmani, Ş.F.Fərzəliyev və b. Səfəvi dövlətinin tarixinə həsr etdikləri əsərlərində "Abbasnamə"yə də müraciət etmişlər. Z.Bayramlı bir çox əsərlərində Məhəmməd Tahir Vəhidin "Abbasnamə"sindən istifadə etmiş və Səttar Əvdinin nəşr etdirdiyi "Abbasnamə" üzrə bir neçə məqalə dərc etdirmiş, 2011-ci ildə işıq üzü görmüş "II Şah Abbasın hakimiyyəti illərində Azərbaycan Səfəvi dövlətinin daxili və xarici siyasəti" adlı kiçik həcmli monoqrafiyanın da qələmə almışdır.

Kitabın müəllifi Məhəmməd Tahir Vəhid Qəzvinli h. 1015-ci (1607) ildə Qəzvində anadan olmuş və dövrünün məşhur tarixçisi, “Xolde bərin”in müəllifi Məhəmməd Yusif Qəzəvinin qardaşıdır. O, Şah Sultan Hüseynin dövründə h. 1110-cu (1699) ildə vəfat etmişdir. Məhəmməd Tahir, Səfəvilər dövrünün böyük tarixçisi olub, Şah Abbas saninin hakimiyyətinin əvvəllərində məclisnəvis vəzifəsində işləmiş, Sarı Tağı ayamalı baş vəzir Mirzə Tağı ilə sıx əlaqəsi olduğuna görə onun zəmanəti ilə qeyd edilən vəzifəyə təyin edilmişdir. 1645-ci ildə Mirzə Tağı öldürülmüş və baş vəzir vəzifəsi Xəlifə sultana tapşırılmışdı. Məhəmməd Tahir Vəhidin yeni baş vəzirlə də yaxınlığı vardı və onun təklifi ilə məclisnəvis vəzifəsinə təyin edilir [6, Ön söz]. Ağay-i İbrahim Dehqaninin bu qeydlərini Ç.Storinin dövrün bir çox mənbələrinə istinad edərək yazdıqları tamamlayır və tarixçinin bioqrafiyası haqqında aydın təsəvvür yaradır. Ç.Stori yazır ki, İmad əd-Dövlə Məhəmməd Tahir Vəhid bin Mirzə Hüseyn xan Qəzvini vəzir Mirzə Tağı əd-Din Məhəmməd və Xəlifə sultanın yanında münşi sifəti ilə xidmətdən sonra, 1645-ci ildə özü göstərdiyi kimi II Şah Abbasa tarixçi (məclisnəvis) təyin edilir. O, 1689-1690-cı ildə vəzir olur

və bu vəzifədə on səkkiz il qalır. 1692-ci ildə İsfahanda anadan olmuş tarixçi Şeyx Məhəmmədəli Xazin Vəhid tutduğu vəzifədən istefa verdikdən sonra onu atasının evində dörd-beş dəfə görmüşdü və dediyinə görə, o vəzir-i əzəm vəzifəsinə Şah Süleyman dövründə təyin edilmiş, Sultan Hüseyn (1694-1722) hakimiyyətə gəldikdən sonra tutduğu vəzifədən istefa vermişdir. Ondan sonra 1699-1700-cü ildə baş vəzir vəzifəsinə Fətəli xan təyin olunmuşdur [4, 888]. Elə həmin vaxtdan apardığı qeydləri əsasında II Şah Abbasın dövrünə aid "Abbasnamə" adı qoyduğu tarix əsərini yazmağa başlayır. Məhəmməd Tahir Vəhid Şah Süleymanın dövründə baş vəzir vəzifəsinə təyin edilir və ona emadəddövlə ləqəbi verilir. Şah Süleymanın hakimiyyətinin son illərində 100 yaşına çatıb qocaldığına və taqətdən düşdüyünə görə tutduğu vəzifədən istefa verir. Sultan Hüseynin dövründə h. 1110-cu (1699) ildə vəfat edir.

**ƏDƏBİYYAT**


1. Zabil Bayramlı, Bəymirzə Şabiyev. XVII yüzilliyin 20-40-cı illərində Səfəvi-Osmanlı münasibətləri (İrəvan və Bağdad uğrunda mübarizə): Tarix və onun problemləri, Bakı, 2014, №1, s. 12-35
2. Bayramlı Zabil. II Şah Abbasın daxili və xarici siyasəti (Məhəmməd Tahir Vəhidin "Abbasnamə" əsəri üzrə):Tarix və onun problemləri, Bakı, 2010, №3, s.12-16
3. Səfərname-ye Tavernye. Tərcome-ye Əbuturab Nuri, İsfan: Çapxane-ye Pərvin,h.1336,719 s.
4. Стори Ч.А.Персидская литература. Библиографической обзор. Перевод с англ. Ю.Э.Брегель, ч. II, М.: Наука, 1972, с. 694-1314
5. A.Sprenger. MSS of the late Sir H.Elliot JASB, XXIII, 1855
6. Abbasnamə ya şərh-i zendeqani-yi 22 sale Şah Abbas sani (1052-1073) təlif-i Məhəmməd Tahir Vəhid Qəzvini (1015-1110). Ba təshiho təhşiyyə Ağa-yi İbrahim Dehqani, Ərak; Çapxane-yi Firudin, 1329, 353 s.
7. Məhəmməd Tahir Vəhid. Sərqozaşte Şah Abbas devvam. Be kuşeşe Səttar Əvdi. Tehran, 1384, 126 s.
8. Muhammedanische Quellen zur Geschichte der sudlichen Kustenlander des Kaspischen Meeres, Theil IV, st. Petersburg, 1858, st 532-533
9. Материалы по истории туркмен и Туркмении. Том II, XVI- XIX вв. Иранские, Бухарские и Хивинские источники. Под редакцией акад. В.В.Струве, А.К.Боровкова, А.А.Ромаскевича и П.П.Иванова, М.-Л.: АН ССР, 1938, 700 с.
10. Миклеухо-Маклой Н.Д. Рукопись исторического сочинения Мухаммеда Тахира и собрании ИНА АН СССР: в кн. Письменные памятники и проблемы истории культуры народов Востока. Тезисы докладов 11 годичной научной сессия ЛО ИНА, март 1966 года, Ленинград
11. Петрушевский И.П. Очерки по истории феодальных отношений в Азербайджане и Армении в XVI-начале XIX вв. Л.: Ленинградский Государственный Университет, 1949, 379 с.

**МУХАММЕД ТАХИР ВАХИД И ЕГО РАБОТА «АББАСНАМЕ»**

**С.А.АЗИМОВА**

**РЕЗЮМЕ**

В данной статье рассмотрена работа Мухаммед Тахир Вахида. Это работа была написана дворцовым историком Шах Аббаса II Мухаммед Тахир Вахидем примерно в 1665-66 гг. Но по какой-то причине, последние три-четыре года правления шаха не были записаны, причины и сегодня не определены. Эта книга является наиболее ценным источником периода Шах Аббаса Сани.

**Ключевые слова:** Сефевиды, Османская империя, Шах II Аббас

**MUHAMMAD TAHIR VAHID AND HIS "ABBASNAME"**

**S.A.AZIMOVA**

**SUMMARY**

The paper deals with a work of Muhammad Tahir Vahid. This work was written by Muhammad Tahir Vahid in the palace of Shah Abbas II in 1665-66s. The article illuminates some political problems taken place in his time. For some reason, the last three or four years of the Shah were not recorded, the reasons are yet to be defined. This book is the most valuable source of the reign of Shah Abbas Sani. As a source, the historian’s work is indispensable. The article investigates and compares it with other literatures of that time.

**Key words:** Safavids, the Ottoman Empire, Shah Abbas II